# 5+2 formulu tarixdir

## Ali Baş Komandanın rəhbərliyi altında bu formul öz əhəmiyyətini itirdi

**Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Ordusu çox böyük uğurlar əldə edib. Bu uğurların əldə edilməsi üçün uzun illər bu prosesə hazırlıq aparılıb. Azərbaycan Ordusu müasir tələblərə uyğun olaraq formalaşdırılıb, ölkənin iqtisadi inkişafı təmin edilib, sosial stabillik əldə olunub, ən ümdəsi isə insanlarda öz dövlətinə inam yaradılıb, dövlət, vətəndaş həmrəyliyi özünün kuliminasiya nöqtəsinə çatıb. Ötən günlərdə hamı bu reallığın şahidi oldu. Azərbaycanın iqtisadiyyatının inkişafının bariz nümunəsi isə döyüşlər davam etdiyi müddətdə Suqovuşandan Tərtər çayına buraxılan sudan səmərəli istifadə məqsədilə kanalların yenidən qurulması barədə tenderin keçirilməsini göstərmək olar. Bu kanalların yenidən qurulması ilə Tərtər, Goranboy, Yevlax və Bərdə rayonlarının 20 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq.**



Bu gün işğal olunmuş ərazilərin müzəffər Azərbaycan Ordusu tərəfindən təmizlənməsi prosesi sürətlə davam etdirilir. Vəziyyətin hələ də qaynar fazada olmasının təqsirkarı isə Ermənistanın siyasi-hərbi rəhbərliyidir. 27 sentyabr tarixindən sonra iki dəfə atəşkəslə bağlı razılıq əldə edilməsinə baxmayaraq, hər dəfə atəşkəsin başlanmasından dəqiqələr keçdikdən sonra erməni tərəfi bu razılığı pozur. Bu ya düşmən ölkənin hərbi və siyasi rəhbərliyi arasındakı ziddiyyətlərin, ya da ənənəvi erməni metodunun təzahürüdür. Azərbaycan çoxillik danışıqlar prosesində işlənib hazırlanmış nizamlama prinsiplərinə daim sadiqdir. Çünki bu prosesdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin iradəsi var. Ermənistan danışıqlar prosesində özünü konstruktiv apararsa, hərbi əməliyyatlar Azərbaycan tərəfindən dayandırıla bilər. Amma erməni tərəfinin qeyri-konstruktivliyi hadisələri izləyən bir insan üçün tam aydındır. Lap son günlərdə Yerevandan verilən bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə zidd olduğunu bir daha sübut edir. Əslində Paşinyan komandasının bütün fəaliyyəti əvvəldən danışıqlar prosesinin pozulmasına yönəlib. Bütün olanlardan sonra erməni tərəfi nəhayət başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, o zaman danışıqlar prosesinə getmək mümkündür. Amma indiyədək olan proseslər ölkəmizin Ermənistana inanmamalı olduğunu göstərir. Bu millətin başında duranların "xəmiri" riyakarlıqla yoğrulub. Babası nasistlərə xidmət etmiş Paşinyandan obyektivlik gözləmək mümkün deyil. O, yalnız Azərbaycan xalqının deyil, həmçinin erməni xalqının da düşmənidir.

Azərbaycan indiyədək nizamlanma prosesində hər zaman baza prinsiplərinə əsaslanıb. Baza prinsiplərində isə yalnız Laçın dəhlizi deyil, bütün kommunikasiyaların, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyaların açılmasından söhbət gedir. Amma ermənilərin siyasi-hərbi rəhbərliyi özünün tutduğu səbatsız mövqeyi ilə bütün baza prinsiplərinin üstündən xətt çəkdi. Əslində hazırkı vəziyyətdə Ermənistan tərəfinin yalnız təslimçilik müqaviləsini imzalanmasından söhbət gedə bilər. Fikrimizcə, Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi qələbələr bunun üçün zəmin yaradıb. Hazırda hansısa muxtariyyətdən söhbət getməməli, ancaq bu ərazidə yaşamaq istəyən Azərbaycan vətəndaşı olan ermənilərin təhlükəsizliyindən söhbət gedə bilər ki, bunun da qarantı kimi Azərbaycan dövləti çıxış edir. Əgər Ermənistan Dağlıq Qarabağdakı 60 min erməninin taleyini düşünürsə, onda Ermənistandan qovduğu 250 min azərbaycanlını da nəzərə almalıdır və azərbaycanlıların kompakt yaşadığı ərazilərdə haqqımızı tanımalı və həmin əraziyə muxtariyyət verməlidir.

Əgər ermənilər işğalı davam etdirəcəklərsə, Azərbaycanın həmin atəş nöqtələrini darmadağın etməsi zəruridir. Biz əvvəlki dövrlərdə danışıqlar zamanı ermənilərə müxtəlif kompromislər, məsələn 5+2 formulunu təklif edirdik. Amma razı olmadılar, o formul artıq tarixdir. İndi işğal olunmuş torpaqların azad olunması prosesi gedir, qanımız hesabına torpaqlarımızı azad edirik, artıq kompromisdən söhbət gedə bilməz. Bundan sonra müqavimət davam edəcəksə, təbii ki, bizim də mövqelərimiz sərtləşməlidir. Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini və hüquqlarını qorumaq üçün hər bir addımı ata bilər. Hələlik biz öz ərazilərimizdə əməliyyat aparırıq. Yəni, hər bir addım ölçülüb-biçilməlidir. Əgər qarşı tərəf bütün bunlardan sonra razılığa gəlib Naxçıvanla kommunikasiyanın açılmasına razılıq verməyəcəksə Azərbaycan əsgəri bunu reallaşdıra bilər. Həmin kommunikasiya xətti boyunca sülhməramlıların yerləşdirilməsi də mümkündür.

Kommunikasiya xətlərinin açılması, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində məskunlaşma ölkəmizin iqtisadiyyatının inkişafı üçün yeni üfüqlər açacaqdır. İlk növbədə bu ərazilərin təbii sərvətləri planlı şəkildə Azərbaycan dövlətinin nəzarəti altında istismar ediləcək, illər uzunu işğal altında qalmış ərazilərdə kənd təsərrüfatı, eləcə də bölgənin turizm sektoru inkişaf etdiriləcəkdir. Azərbaycan musiqi mədəniyyətinin beşiyi adlandırılan Şuşada Beynəlxalq musiqi günlərinin keçiriləcəyi gün uzaqda deyil.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan oktyabrın 17-də xalqa müraciəti ilə bu əminliyi bir daha təsdiqlədi: "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

Bu yerdə demək yerinə düşər ki, Azərbaycanın Ali Baş Komandanına eşq olsun! Yaşasın Türk dünyası!

**Elçin Bilaloğlu**